***Nigar ZEYNALOVA***
***AMEA Folklor İnstitutunun dissertantı***
***E-mail: zeynalova.nigar.a@gmail.com***

# KOSMİK QƏZA MİFLƏRİNİN ESXATOLOJİ SEMANTİKASI

**XÜLASƏ**

Kosmik qəza mifləri bütün dünya xalqlarında eyni motiv üzərində yaranır. Günahların artması, Allaha olan sevginin azalması, nəticədə tanrı qəzəbi bu cür miflərin yaranmasında əsas rol oynayır. Araşdırdığımız dünya daşqın miflərinin strukturunda suyun xaotik qüvvə olması, dağıdıcılıq funksiyasının nəticəsi günahkar insan nəslinin qırılmasına gətirib çıxarır. Əvəzində yeni dünyanın yaranmasına inam belə miflərin leytmotivində aparıcı qüvvəyə çevrilir. Şumer, Akkad, Çin, Misir, Şimali Amerika xalqlarının daşqın miflərində süjet əsasən tanrı və günahkar insanların qarşıdurmasına görə qurulmuşdur. Belə miflərdə seçilmiş insanlar gələcək dünyanın yaranmasında başlıca fiqur kimi verilir. Daşqın miflərində dağ insanın xilas məkanıdır. Bütün daşqın miflərinin əsas qəhrəmanları və digərləri üçün dağ sığınacaq yeridir. Bu da bütün daşqın miflərinin dünya xalqlarında məzmun fərqi olsa da, məkanın – sonluğun eyni olmasını göstərir. Xilaskar qəhrəmanlar isə hər bir xalqın öz mifoloji obrazıdır. Buna baxmayaraq, daşqının mahiyyəti dəyişmir. Onun mahiyyətində xeyirin şər üzərində qələbəsi durur.

**Açar sözlər:** folklor, esxatologiya, mif, mifologiya, kosmoqoniya, təqvim mifləri, qiyamət

**SUMMARY**
**ESCHATOLOGİCAL SEMANTİCS OF COSMİC ACCİDENT MYTHS**

Myths of cosmic accident arise on the same motive in all peoples of the world. The increase of sins, the decrease of love for God and finally the wrath of God plays a key role in the formation of such myths. The chaotic force of water in the structure of the world flood myths which we have investigated, the result of its destructive function, leads to the destruction of the sinful human race. The belief in the creation of a new world is transformed into the leitmotif of apotheosis of such myths. The storyline of the flood myths of the peoples of Shummer, Akkad, China, Egypt and North America are based on the confrontation of sinful people. In such myths the chosen people are given as the main figures in the creation of the world. Flood myths mountain is a place of human salvation. The mountain is a refuge for the main heroes of all flood myths. This shows that although the myth of the whole flood is different in content among the peoples of the world, the place – the end is the same. The savior heroes are the mythological image of each nation. Despite this the nature of the flood does not change. In its essence, goodness triumphs over evil.

**Key words:** folklore, eschatology, myth, mythology, cosmogony, calendar myths, doomsday

**РЕЗЮМЕ**
**ЭСХАТОЛОГИЧЕСКАЯ СЕМАНТИКА МИФОВ КОСМИЧЕСКИХ КАТАСТРОФ**

Мифы о космических катастрофах основаны на одном и том же мотиве у всех народов мира. Увеличение греха, уменьшение любви к Богу и последующий гнев Бога играют важную роль в создании таких мифов. Хаотическая сила воды в структуре изучаемых нами мифов о всемирном потопе, результат ее разрушительной функции, ведет к уничтожению греховной человеческой расы. Напротив, вера в создание нового мира становится ведущей силой в лейтмотиве подобных мифов. Сюжет в мифах о потопе народов Шумера, Аккада, Китая, Египта и Северной Америки основан на противостоянии богов и грешников. В таких мифах избранные люди изображаются ключевыми фигурами в создании будущего мира. Согласно мифам о потопе, гора - место спасения. Гора является убежищем для главных героев всех мифов о потопе и других. Это показывает, что хотя все мифы о потопе различаются по содержанию у народов мира, место - конец одинаково. Герои-спасители – мифо-

логический образ каждого народа. Однако характер наводнения не меняется. Его суть – победа добра над злом.

**Ключевые слова:** фольклор, эсхатология, миф, мифология, космогония, календарные мифы, конец света

**Məsələnin qoyuluşu:** Kosmik qəza mifləri insan və təbiət, insan və kosmos əlaqələrinin pozulması, birtərəfli qaydada kosmosa və təbiətə texnogen təsirlərin, həmçinin insanın "fəaliyyəti" nəticəsində olmayıb, kosmik hadisələrin, planet toqquşmalarının nəticəsində yaranan geniş maşstablı fəlakətlərin səbəbi ilə də baş verir. Kosmik qəza miflərinin içərisində mifoloji ədəbiyyatlarda ən çox adı çəkilən daşqın mifləridir. Daşqın miflərinin yaranmasında su ünsürünün iştirakı ilə təbiətdə natural şəkildə baş verən kosmik fiziki hadisələr rol oynayır. Bu cür fiziki hadisələrə iki yöndən yanaşa bilərik:

1) atmosferdə karbon qazının miqdarının artması Yerin orta qlobal temperaturunun artmasına səbəb olmuş, bu da öz növbəsində Yerin su səthinin qalxmasına səbəb olmuşdur [2, s. 7];

2) dünya okeanının səviyyəsinin artması nəticəsində bütün yer üzü sulara qərq olmuş, bunun nəticəsində də Atlantida bir sivilizasiya kimi məhv olmuşdur.

**İşin məqsədi:** Tədqiqatın aparılmasında başlıca məqsəd kosmik qəza haqqındakı miflərin esxatoloji semantikasını araşdırmaqdır.

Günəş sistemində planetlərin toqquşması nəticəsində də kosmik qəzalar yarana bilər. Bu haqda Faeton haqqında yunan mifində də məlumat verilir. Miflərdə də Faeton (tərcümədə bu ad «parlaq» mənasını verir) qədim miflərdə günəş tanrısı Helios və okeanid Klimenanın oğlu kimi verilir. T.İ.Şamyakina yazır ki, bu, "Şərqi Asiya xalqlarının miflərində qeyd olunur. Sakit okeanın suları sahildən çəkiləcək, Yerin başqa qurtaracağında, Mərkəzi Amerikada sular dağların zirvəsinə qədər qalxacaqdır" [8, s. 50].

Bu, Faeton mifində də əks olunur. Faeton böyük bir kosmik bədən kimi Yer kütləsinə yaxınlaşacaq, hər dəfə o, Yerə yaxınlaşdıqca insanları narahat edəcək, onun təzahür etməsindən sonra buz dövrü başlayacaq. Yerin kosmos bədənində geoloji hadisələr, vulkan püskürmələri baş verəcək. Göyə atılan vulkan külləri Günəşin üzərini örtəcək. Zülmət dövrü və soyuqlaşma (buzlaşma) baş verəcəkdir. Beləliklə, Yerdəki iqlim onuncu Faeton planetindən asılıdır. Kosmosda planetlərin sayının 9 olması haqqında məlumatlar çoxdur. Amma onuncu planetin mövcudluğu haqqında qəti söz deyilmir. Bu barədə mifdə qəti deyilir ki, Faetonun kütləsi Yerə toxuna bilməz, kataklizm yaratmaz. Çünki bu kataklizmin qəlpələri, asteroidlər orbitdə hərəkət edir, zamandan zamana orbitdən çıxır və Günəş sisteminin başqa planetlərinə düşür. Faetonun peykləri Ay və Merkuri olmuşdur. Onuncu planetdən başqa Yerə Günəş sistemindəki planetlər də yaxınlaşa bilər. Bunların içərisində Yerə ən yaxın olan Venera və Marsdır.

T.Şamyakina yazır ki, "Məşhur amerikalı alim İmmanuil Velikovskiy öz əsərlərində Çin mifoloji mənbələrinə istinad edərək, onların dəfələrlə təsdiq olunduğunu göstərir. O, qədim Çindəki nəhəng daşqın hadisəsinin səbəblərini "parlaq

ulduzun İn bürcündən uzaqlaşması"nda görür. Bunun nəticəsində Yer orbitindən çıxır, onun illik dövr etmələri, fırlanma bucağı, fəsillər və s. dəyişir" [8, s. 51].

Tarixdən əvvəlki keçmiş zamanlarda belə bir fəlakətin olduğunu elm də təsdiq edir. Qədim mayalıların, Misir və hind gil kitabələrinin verdiyi məlumatlar, Havay adalarının quzeyindən güneyə – Filippin adalarına qədər çox böyük bir ərazini Mu qitəsinin əhatə etdiyi haqqında geoloji qazıntıların nəticələri sübut edir ki, 12.000 il öncə bu ərazilərdə Mu qitəsi yerləşmişdir. Qitə qorxunc və dəhşətli bir zəlzələ nəticəsində su girdabı içində məhv olmuşdur. Q.Namazov yazır ki, "C.Çörçvod Hindistan məbədlərinin birində saxlanan gil tabletlər üzərində yazılan bu məlumatları məbədin baş kahininin köməyi ilə oxuya bilmişdir. Dünyanın müxtəlif ölkələrində, məsələn, Birmada, Misirdə, İngiltərənin Britiş məbədində tapılan gil məbədlər üzərindəki yazılar da Mu qitəsinin faciəsindən bəhs edir. Bu esxatoloji hadisə o zamankı dünyanın sonu ilə bağlı olub, insanlığın məhv olmasını göstərir. C.Çörçvod Mu qitəsini ilk insanın, ilk vətənin yarandığı yer olduğunu təsdiq edir" [6, s. 34].

Yukatanda saxlanan Maya kitabında da ilk insanlığın vətəni olmuş Mu qitəsi haqqında məlumat vardır. 64 milyonluq bu qitənin kralı Ra adlanırdı (hökmdar – tanrı mənasında). Onun adına Ra Mu deyirdilər (Yapon alimləri tərəfindən Sakit okeanda tapılmış Mu kralının hüzuruna aparan saray qapısının girişindəki simvol ilə Türkmənistan manatı üzərindəki Oğuz xaqanın baş geyimi eynidir). Ra Munu Günəş tanrısı kimi mənalandırmaq olar. Kralı adı ilə çağırmaq ənənəsi olmadığından onu Günəş tanrısının adı ilə Ra Mu deyə çağırırdılar. Bu kral həm də Yaradanın təmsilçisi idi, dini rahib kimi tanrı dininin qoruyucusu idi. C.Çörçvod Mu qitəsində baş verən zəlzələləri, esxatoloji daşqını, Yerin məhvərindən çıxaraq sağa, sola çalxalanması, Yerin əmələ gətirdiyi yarıqlardan qalxan atəşlərin 4-5 kilometr olduğunu, dəhşətli ildırımların çaxmasını, qitənin okeanın dibinə enməsini təsvir edir. Tarix göstərir ki, Mu qitəsinin başına gələn hadisələrə oxşar kosmik qəzalar Yer kürəsində dəfələrlə təkrar olunmuşdur.

Rahil İnozemtseva "Atlantidanın izləri" məqaləsində Donelli tərəfindən irəli sürülən 13 əsas tezisi izah edir: Aralıq dənizi ilə Atlantik okeanı arasında qədim dünyanın Atlantidası kimi nə vaxtsa böyük bir ada olmuşdur; Bu adanın Platon tərəfindən təsviri mif yox, reallıq olmuşdur; Atlantida ilk insanın yaranışından sivilizasiyaya qədər inkişaf edən ölkə olmuşdur və s. [4, s. 319-334].

Atlantidanın varlığının sübutları qədim kitabların düzgünlüyünü göstərir, burada bəşər tarixinin əhatə dairəsinin böyük olduğunu görürük. Bu da Atlantik okeanının əks sahillərindəki qədim sivilizasiyaları (xüsusən Amerika hinduları) öyrənməyə, qədim Misir və Şumer memarlığında, Mesopotamiyada, Nil vadisi və Meksikada izlənilən oxşarlıqları izah etməyə imkan verir.

Kosmik qəza mifləri həqiqi kosmik qəzaların qədim insanların mifoloji şüuruna təsiri nəticəsində meydana gəlmişdir. Kosmik qəzaların insan şüurunda anbaan əks olunması, onlara mənfi təsir göstərərək psixi pozuntulara səbəb olur və onlar bu hadisənin Allahın iradəsi ilə baş verdiyini düşünürlər. Onlar belə hesab edirlər ki, təbiətə, heyvanlara, quşlara qarşı çox haqsızlıq etdiklərinə görə cəzalan-

dırılırlar. Allaha sadiq olan insanlar isə əvvəlcədən qəza haqqında məlumatlandırılırlar, onlar da gəmi düzəldərək uzaqlara gedirlər, ya da ən yüksək ağacda, dağ başında bu qəzadan xilas olurlar. Onlar Allahın iradəsi ilə canlıları qorumaq üçün bir cüt quş, iki insan, bir az toxum, bitki götürür və yeni insanları, bitkiləri və s. artırırlar. Daşqın haqında yeni nəslə məlumatlar verir, onları Allaha itaət etməyə çağırırlar, kosmik qəzanın 7 gün, 40 gün, yarım il və s. olması haqda danışırlar.

Esxatoloji problemlər bütün dünya xalqlarında eynidir, bu problemlər bəşəri mahiyyət daşıyır və axirət inamı ilə müşayiət olunur, insan həyatının müvəqqəti olması əks etdirilir. Hətta dövlət strukturu yaranmamışdan əvvəl qədim insanlar öz ölülərinin bu dünyanı tərk edərək başqa bir dünyaya, məsələn, o dünyaya, ölülər dünyasına getməsinə inanırdılar. İbtidai xalqlarda dövlət yarandıqdan sonra dünya haqqında mifoloji sistemlər də formalaşdı. O dünya, ölüb-dirilmə, esxatologiya haqqında ibtidai dinlərdə mifoloji təlimlər yarandı. T.Şamyakina qeyd edir ki, "İlk dəfə esxatologiya yəhudi peyğəmbərlərinin missioner fəaliyyə-tində nümayəndəlik sistemi rəsmiləşdirildi, gələcək tarixi hadisələr barədə onların peyğəmbərlikləri bütün ölkələr üçün əhəmiyyətli idi. Eyni zamanda Tarix tanrı tərəfindən bildirilən müəyyən bir məqsədə nail olmaq kimi düşünülmüşdür. Əhdi-Ətiq peyğəmbərlərdən dünya esxatologiyasına miras qalmış xristianlıq – "yeni bir cənnət və yeni bir yer" doktrinası. Bununla birlikdə, xristianlıqda daha böyük qərəz fərdi esxatologiyaya aiddir: Tarix bitdikdən sonra mömünlər əbədi həyat üçün, günahkarlar isə əbədi ölüm üçün diriləcəklər" [8, s. 3].

Göründüyü kimi, xristianlıqda və müsəlman ideologiyasında axirət dünyasına eyni qiymət verilir və insanlar mömün olmağa dəvət edilir. Lakin xalqların heç bir dini-mifoloji dünyagörüşündə dünya daşqını haqqında real tarixi faktlara istinad edilmir. Bəşəriyyət tarixindən əvvəlki, daşqınaqədərki dövrdə insanların yaşamı, məşğulluq sahəsi, dini-mifoloji dünyagörüşləri çox az olaraq bizə məlumdur.

Qədim yunan yazıçısı Hesiod da "Zəhmətlər və günlər" poemasında bəşəriyyətin keçdiyi dövrləri beş yerə bölür. Bu dövrlərin içində birincisi qızıl dövrdür. Bu dövr Kronosun allahlıq etdiyi dövrdür. İnsanlar allahlar kimi zəhmət çəkmədən qayğısız, xoşbəxt yaşayırlar. İkinci dövr gümüş dövrü idi. Bu dövrdə də insanlar xoşbəxt idilər. Nizənin ağacından yaradılan bu insanlar çox qüvvətli və qorxunc idilər. Onların istifadə etdikləri hər şey misdən idi. Sonra Zevs dördüncü dövrü yaratdı, bu dövr yarımallahlar dövrü idi. Bu insanlar xeyirxah, ədalətli idilər və müharibələrdə məhv oldular. Beşinci dövr dəmir dövrüdür və indi də insanlar yaşamaqlarını davam etdirirlər. Şairin ən çox xoşuna gələn də beşinci dövrdür [7, s. 83-84].

Hesiodun əsərindən məlum olan bu dövrlərin bəşəriyyət tarixində müəyyən mənada öz adları ilə bağlı qoyduğu izlərdir. Bu dövrlərin hər birinin məhv olma müddətlərində yaşanan fəlakətlər təbii prosesin nəticəsi olaraq bilinir. Belə fəlakətlərin müşayiət olunduğu ünsürlərin ən birincisi su hesab olunur. Su eyni zamanda od, yel və torpaq ilə əlaqəli olduğundan kosmik qəzalarda da onlar birgə iştirak edirlər. Ona görə də Şumer, Misir, Hind, Çin, Türk, Slavyan mifologiyalarında su ən çox xaotik qüvvə rolunda çıxış edir. Ona görə də kosmik qəzanın ya-

ratdığı sel, sunami, daşqın antik dünyaların məhv olmalarının əsas səbəbləri kimi qədim xalqların mifologiyalarında xatırlanır.

Şumer mifologiyasında daşqın mifi öz dövrünün sakinlərinin tanrılarına, tanrıların da onlara olan münasibətini əks etdirir. Tanrıların Yer üzünə daşqın göndərməsi qərarına qarşı çıxan iki tanrı və Ziusudradır. Əsərdə Ziusudra daim tanrılara qulluq edən, onlara ibadətgahlar tikən, Tanrıdan qorxan bir hökmdar kimi verilmişdir. Tanrılar böyük bir gəminin düzəldilməsini ona həvalə edirlər. Sonra daşqın fəlakəti təsvir olunur, bütün ziyarətgahlar su altında qalır, 7 gün, 7 gecə daşqın Yer üzünü basır. Sonra Günəş tanrısı Utu görünür, Ziusudra gəmisində pəncərə açır, Utunun şüaları gəmiyə həmin pəncərədən nüfuz edir. "Bilqamıs" dastanında daşqının təsviri belə verilir:

Sübhün gözü açılıb, üfüqə düşəndə dən,
Bir qara bulud qalxdı, göylərin təməlindən
Buludun ortasında Uddu parıldayırdı
Önündə Şullat ilə Haniş addımlayırdı [3, s. 163].

Amerika hindularının daşqın mifləri. Şimali Amerikanın Çoktac hindularının özlərinə məxsus daşqın mifi vardır: "Uzun müddət bütün yer üzünü qaranlıq bürüdü. Çoktacların təbibləri və sehrbazları uzun müddət işıq axtardılar, tapa bilməyib ümidsiz oldular və insanlar da kədərləndilər. Nəhayət bir işıq tapıldı. Ancaq sonra başa düşdülər ki, bu işıq düz onların üstünə gələn böyük su dalğalarıdır. Bir neçə ailədən başqa su onların hamısını məhv etdi. Həmin ailələr isə əvvəlcədən daşqınla bağlı hazırlıq işləri gördüklərinə, böyük taxta sal düzəltdikləri üçün xilas ola bilmişdilər" [1, s. 142-143].

İnklərin də daşqın mifləri Şimali Amerikanın digər xalqlarının daşqın mifləri kimi öz təfəkkürlərinin məhsuludur. Onların daşqın miflərinin əsas obrazı iki mömün çoban qardaşdır. Mifdə deyilir ki, nə zamansa Paçaçama adlı bir dövr olmuşdur, o zamanın insanları ağılsız, qəddar və vəhşi idilər. Onlar ağıllarına gələni edir və heç nədən qorxmurdular. Onların başı müharibələrə və oğurluqlara qarışmışdı, ona görə də tanrını unutmuşdular. Yer üzünün tənəzzüldən kənarda qalan yeganə hissəsi hündür And dağları idi. Perunun dağlıq hissəsində iki mömün çoban qardaş yaşayırdı. Bir dəfə onlar gördülər ki, onların lamaları özlərini qəribə aparırlar. Onlar otlamır, gecələr ulduzlara baxırdılar. Onlar lamalardan bunun səbəbini soruşanda ulduzların onlara yer üzündə bütün canlıları məhv edəcək böyük daşqının yaxınlaşması xəbərini söylədilər.

Qardaşlar qərara gəldilər ki, ailələri ilə birgə ən yüksək dağların mağaralarına sığınsınlar. Onlar sürülərini də götürüb mağaralara getdilər. Yağış başladı. Bir neçə ay davam etdi. Dağdan baxanda qardaşlar lamaların sözlərinin doğru olduğunu başa düşdülər: bütün dünya ölürdü. Qardaşlar aşağıda ölən bədbəxtlərin fəryadını eşitdilər. Sular yüksəldikcə dağlar sehirli şəkildə daha yüksəklərə ucaldı. Yenə də bir müddətdən sonra mağaranın ön giriş hissəsində su ləpələnməyə başladı. Lakin sonra dağlar daha da yüksəldi. Bir dəfə qardaşlar yağışın dayandığını və suların çəkildiyini gördülər. Günəş tanrısı İnti göydə göründü və gülümsədi və bütün su buxarlandı. Qardaşların yığdıqları yemək bitmək üzrəydi; qardaşlar aşağı bax-

dılar və yerin quru olduğunu gördülər. Dağlar yenidən ilkin hündürlüyünə düşdü və ailələri ilə birlikdə çobanlar enib insanlığı canlandırdılar. O vaxtdan bəri insanlar hələ də hər yerdə yaşayırlar; lamalar heç bir şəkildə daşqını unuda bilməzlər və dağlıq ərazilərdə məskunlaşmağı üstün tuturlar [1, s. 146 - 147].

Bu kimi miflərdə daşqının səbəbi teolojidir, insanların tanrını unutmaları onlara göndərilən daşqınlarla müşayiət olunur, bu günah adi deyil. Mifoloji düşüncədə insanları yaradan tanrılardır. Tanrı sözünə əməl etməmək böyük faciələrə səbəb olur. Yeri gəlmişkən, müdrik Misir kahinləri də bu barədə danışırdılar. Qədim Misir daşqın mifində deyilir ki, “Günəş tanrısı Ra, atası Sonsuz Sulardan bəşər nəslinin çox qəddar olduğu və tanrılara qarşı üsyan etmək istədiyi barədə bir xəbərdarlıq aldı. Sonra Ra öz gözünü – Hathor ilahəsini çağırdı və itaətsizləri cəzalandırmağa göndərdi. Hathor yer üzünə enərək minlərlə insanı, sonra isə minlərlə insanı öldürməyə başladı. İlahə o qədər dəhşətli idi ki, Çetunetanın küçələrində qan çayları axırdı. Qan axıb Nilə töküldü, çay daşdı və su qana qarışdı, qan suya qarışdı, qan qarışıq sular yerdəki hər şeyi məhv etdi. Sonra axın dənizə çatdı, o da daşdı. Qaniçən Hathor bu dəhşətli suyu məmnuniyyətlə içdi. Ancaq Ra insanlığı cəzalandırmaq niyyətində idi, ancaq onu tamamilə yox etmək istəmirdi. Buna görə də ən müdrik tanrı olan Totu yanına çağırdı, ondan məsləhət istədi. Sonra o, Sektet ilahəsini göndərdi ki, çoxlu xurma əzsin, arpaya ilə qarışdırsın və tünd pivə hazırlasın və insan qanı ilə qarışdırıb Hathora içirsinlər. Tanrılar pivə hazırladılar, pivədən böyük bir dəniz əmələ gəldi. Onlar pivəni bardaqlara töküb Hathorun qabağına qoydular. Hathor içib sərxoş oldu və sağ qalan insanları unudaraq yuxuya getdi. Onlardan bəşər övladı yenidən doğuldu” [8, s. 13].

Misir mifologiyasında daşqın mifləri tanrılarla bağlı olsa da, Misir padşahlarının daşqınla bağlı gördükləri tədbirlər Misir tarixinin şanlı səhifələrini təşkil edir. Miflərdə də Suridin daşqınla bağlı gördüyü işlər təsvir olunur. N.B.Mamuna yazır: “Suridin gördüyü yuxu piramidaların inşasına səbəb oldu. Surid Yerin su altında qaldığını, çarəsiz insanların suda boğulduğunu, ulduzların qorxu içində yollarını itirdiklərini və göydən dəhşətli bir səs-küyün gəldiyini gördü. Bu yuxu hökmdarda güclü bir təəssürat yaratsa da, bu barədə heç kimə demədi və dəhşətli hadisələr ərəfəsində ölkəsinin hər yerindən kahinləri çağırdı və gördüklərini gizli şəkildə onlara bildirdi. Ona dövlətinin böyük bir fəlakətə düçar olacağını əvvəlcədən söyləyənlər illər sonra bu torpağın yenidən çörək və xurma istehsal edəcəyini dedilər. Sonra hökmdar piramidaları tikməyə qərar verdi və kahinlərin peyğəmbərliyini sütunlara və böyük daş plitələrə çəkməyi əmr etdi. Piramidaların içərisində sələflərinin cəsədləri ilə birlikdə xəzinə və digər qiymətli əşyaları gizlətdi. Bundan sonra o, Nil sularında yeraltı keçidlərin inşasını əmr etdi. Piramidalardakı bütün otaqları talismanlar, bütlər və digər möcüzəvi əşyalar kahinlər tərəfindən hazırlanmışdı və o, bütün sahələrə aid bilikləri, dərman bitkilərinin adlarını və xüsusiyyətlərini, sayma və ölçmə ilə bağlı məlumatlar olan sənədləri onları başa düşə bilənlərin xeyrinə qorunması üçün piramidaya qoydurdu” [5, s. 408].

**İşin yeniliyi və nəticəsi:** Bu piramidaların bir maraqlı xüsusiyyəti vardır. Piramidalar görünüşünə görə gəmiyə oxşayırlar. Bu da gəmiçik sənətinin Misirdə

qədimliyini, tarixdən əvvəlki dövrlərdə inkişaf etdiyini göstərir. Daşqından qorunmaq düşüncəsində gəminin və piramidanın rol oynaya biləcəyi aydın görünür. Surid gəmi də hazırlatdıra bilərdi, öz əhalisini, bütün canlıları bu gəmiyə doldurub dağa aparmaq əvəzinə piramidanın quruluşundan istifadə etməklə öz vəzifəsinin öhdəsindən gəlməyi düşünmüşdür.

Daşqın mifləri dünyanın qədim xalqlarının miflərində esxatoloji düşüncəsinin əsasını təşkil etmişdir. Şumer, Babil, Hind. Çin, Türk, Misir, İsrail, İran mifologiyalarında daşqın miflərinin əsas ünsürü sudur. Su insan həyatının həm vacib yaşam elementi, həm də dünyanı dağıdan qüvvə olmuşdur.

**İşin nəzəri və praktiki əhəmiyyəti:** Tədqiqatın nəzəri əhəmiyyəti ondan miflə bağlı tədqiqatlarda nəzəri qaynaq kimi istifadə imkanları, praktiki əhəmiyyəti isə işdən ali məktəblərdə miflərin tədrisi prosesində praktiki vəsait kimi istifadə imkanları ilə müəyyənləşir.

## ƏDƏBİYYAT

1. Birlayn C.F. Paralel mifologiya / C.F.Birlayn. – Bakı: Elm və Təhsil, – 2014, – 324 s.
2. Əliyev R. Azərbaycan nağıllarında mifik görüşlər /R.Əliyev.–Bakı: Elm,–1992,–118 s.
3. Qədim Şərq ədəbiyyatı / – Bakı: Azərbaycan ensiklopediyası, – 1999, – 584 s.
4. Иноземцева Р. Следы Атлантиды. Неведомое: борьба и поиск / Сборник. Сост. Спартак Ахмедов / – Москва: Молодая гвардия, – 1983, – 352 с.
5. Мамуна Н.Б. Зодиак мистерий. Зодиакальная мифология / Н.Б.Мамуна. – Москва: Алетейя, – 1998, – 437 с.
6. Namazov Q. C.Çörçvodun tarixi kəşfləri/Q.Namazov.–Bakı: MBM,–2010,–167 s.
7. Sultanlı Ə. Antik ədəbiyyat tarixi / Ə. Sultanlı. – Bakı: Nurlan, – 2008, – 520 s.
8. Шамякина Т.И. Эсхатология (мифы о потопе) / Т.И.Шамякина. – Минск: Белорусский государственный институт, – 2007, 65 s.